# Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

**AR Konstitusiyasının 23-cü maddəsinə və "Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında" AR-ın Konstitusiya Qanununa uyğun olaraq, AR-ın Dövlət Gerbindən istifadə qaydalarını müəyyən edir.**

TƏLİMÇİ: RİZVAN FİKRƏTOĞLU

# Maddə 1. AR-ın Dövlət Gerbi

**AR Konstitusiyasının 23-cü maddəsinin I hissəsinə əsasən, AR-ın Dövlət Gerbi AR-ın dövlət rəmzidir.**

**AR-ın Dövlət Gerbinin təsviri "Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında" AR-ın Konstitusiya Qanunu ilə müəyyən edilir.**

# Maddə 2. AR-ın Dövlət Gerbinə hörmət

AR Konstitusiyasının 75-ci maddəsinə əsasən, hər bir vətəndaş AR-ın Dövlət Gerbinə hörmət etməlidir. AR-ın Dövlət Gerbinə hörmətsizliyin nümayiş etdirilməsi qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

AR Konstitusiyasının 69-cu maddəsinə əsasən, AR-ın vətəndaşları ilə yanaşı əcnəbilər və vətəndaşlığı olmayan şəxslər də bu Qanunun 2.1-ci maddəsində göstərilən vəzifəni daşıyırlar.

# Maddə 3. AR-ın Dövlət Gerbi haqqında qanunvericilik

**AR-ın Dövlət Gerbi haqqında qanunvericilik ibarətdir:**

- **AR-ın Konstitusiyasından,**
- **“Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında” AR-ın Konstitusiya Qanunundan,**
- **AR-ın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən,**
- **bu Qanundan və bu Qanuna uyğun qəbul olunmuş digər normativ hüquqi aktlardan.**

# Maddə 4. AR-ın Dövlət Gerbi ilə bağlı dövlətin vəzifələri

**AR-ın Dövlət Gerbi ilə bağlı dövlətin vəzifələri aşağıdakılardır:**

- **AR-ın Dövlət Gerbinin mahiyyətini və əhəmiyyətini əhali arasında geniş təbliğ etmək və onları bu barədə maarifləndirmək;**
- **Gəncləri və təhsilalanları AR-ın Dövlət Gerbinə hörmət ruhunda tərbiyələndirmək;**
- **AR-ın hüdudlarından kənarda AR-ın Dövlət Gerbi barədə təhqiredici hərəkətlərin qarşısının alınması üçün beynəlxalq hüquq normalarına və AR-ın Cinayət Məcəlləsinə uyğun tədbirlər görmək;**
- **Bu Qanuna riayət olunmasına nəzarəti təmin etmək.**

# Maddə 5. AR-ın Dövlət Gerbinə müəlliflik hüququ

**“Müəllif hüququ və əlaqəli hüquqlar haqqında” AR-ın Qanununa əsasən, dövlət rəmzləri müəlliflik hüququnun obyekti deyildir.**

**Azərbaycan dövləti AR-ın Dövlət Gerbini qeyri-qanuni istifadədən və ona zərər vuran digər hərəkətlərdən qoruyur.**

# Maddə 6. AR-ın Dövlət Gerbinin qabarıq təsvirinin vurulduğu yerlər

**AR-ın Dövlət Gerbinin qabarıq təsviri aşağıdakı yerlərə vurulur:**

- AR-ın 1.Prezident sarayına, 2.dövlət iqamətgahlarının binalarına, AR 3.Prezidentinin xidməti otağına;
- AR 4.Milli Məclisinin binasına və 5.iclas salonuna, AR 6.Milli Məclisinin Sədrinin xidməti otağına;
- 7.NMR Ali Məclisinin binasına və 8.iclas salonuna, 9.NMR Ali Məclisinin sədrinin xidməti otağına;
- 10.Müvafiq icra hakimiyyəti orqanının (Prezident) müəyyən etdiyi orqanların (qurumların) binalarına;
- AR-ın 11.bütün məhkəmələrinin binalarına və 12.məhkəmə iclaslarının salonlarına, AR 13.Konstitusiya Məhkəməsi sədrinin və 14.AR Ali Məhkəməsi sədrinin xidməti otağına;
- 15.AR-ın diplomatik nümayəndəliklərinin və 16.konsulluqlarının binalarına.

AR-ın Dövlət Gerbinin qabarıq təsvirinin istehsalı və vurulması qaydaları müvafiq icra hakimiyyəti orqanının (Prezident) müəyyən etdiyi orqan (qurum) (Nazirlər Kabineti) tərəfindən müəyyən edilir.

# Maddə 7. AR-ın Dövlət Gerbinin təsvirindən istifadə

**AR-ın Dövlət Gerbinin təsvirindən 1.hüquqi aktların və 2.dövlətin adından verilən sənədlərin blanklarında, 3.AR-ın kağız və 4.metal pul nişanlarında, 5.qiymətli kağızlarında, AR vətəndaşının 6.şəxsiyyət vəsiqəsində və 7.pasportunda, dövlət orqanlarının (dövlətin adından hakimiyyət səlahiyyətlərini həyata keçirən qurumların) 8.sənəd blanklarında və 9.möhürlərində, 10.dövlət orqanlarının binalarının lövhələrində, 11.dövlət təltiflərinin təsvirində, AR 12.Milli Məclisinin və 13.müvafiq icra hakimiyyəti orqanının (Prezident) müəyyən etdiyi orqanın (qurumun) rəsmi nəşrlərində və AR-ın 14.sərhəd nişanlarında istifadə olunur.**

**AR-ın Dövlət Gerbinin təsvirindən istifadənin digər hallarını müvafiq icra hakimiyyəti orqanının (Prezident) müəyyən etdiyi orqan (qurum) (Prezident) müəyyən edir.**

# Maddə 7. AR-ın Dövlət Gerbinin təsvirindən istifadə

- AR-ın Dövlət Gerbinin təsviri olan möhürlərin və sənəd blanklarının hazırlanması, istifadə olunması, saxlanılması və məhv edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının (Prezident) müəyyən etdiyi orqan (qurum) (Prezident) tərəfindən müəyyən edilir.
- AR-ın Dövlət Gerbinin təsvirinin dövlət orqanlarının binalarının lövhələrində və sərhəd nişanlarında istifadə olunması qaydaları müvafiq icra hakimiyyəti orqanının (Prezident) müəyyən etdiyi orqan (qurum) (Nazirlər Kabineti) tərəfindən müəyyən edilir.
- AR-ın Dövlət Gerbinə ehtiram bəsləyən hər bir şəxs AR-ın Dövlət Gerbinin təsvirindən bu Qanunun tələblərinə uyğun istifadə edə bilər.
- AR-ın bütün təhsil müəssisələrində yeni dərs ilinin birinci dərsi AR-ın digər dövlət rəmzləri ilə yanaşı AR-ın Dövlət Gerbinin öyrənilməsinə həsr edilir.

# Maddə 8. AR-ın Dövlət Gerbindən istifadəyə dair məhdudiyyətlər

**AR-ın Dövlət Gerbi oturulan və ayaq basılan yerlərdə təsvir edilə bilməz.**

**AR-ın Dövlət Gerbinin təhrifinə yol verilmir.**

# Maddə 9. Bu Qanunun pozulmasına görə məsuliyyət

**Bu Qanunun tələblərini pozan şəxslər:**

**AR-ın Mülki Məcəlləsinə,**
**AR-ın İnzibati Xətalar Məcəlləsinə**
**AR-ın Cinayət Məcəlləsinə uyğun olaraq məsuliyyət daşıyırlar.**

# Maddə 10. Yekun müddəa

- **Bu Qanun qüvvəyə mindiyi gündən "Azərbaycan Respublikasının Dövlət gerbi haqqında Əsasnamənin təsdiq edilməsi barəsində" AR Qanununun (AR Ali Sovetinin Məlumatı, 1993, № 4, maddə 117; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 463; 2005, № 2, maddə 61; 2006, № 3, maddə 225; 2010, № 4, maddə 276; 2013, № 5, maddə 463) 1-ci maddəsi ləğv edilir.**

- **İlham ƏLİYEV,**
- **Azərbaycan Respublikasının Prezidenti**

- **Bakı şəhəri, 19 fevral 2019-cu il**
- **№ 1511-VQ**